## Tərana Arifqızı

### Üzüm Var (Təcnis)

Öz arzuma bıçaq çəkən düşmənəm,
Gecə- gündüz gözlərimə düşmə, nəm!
Çox çəksən də ayağımdan,düşmənəm,
Inadkaram, yaşamağa üzüm var.

Düşünmədin gərək mənəm sənə, sən,
Elə dedin külək mənəm, sən əsən,
Yelə verdin neçə-neçə sənə sən,
Ağlın-fikrin dövlət yığım, üzüm, var.

Çıxdım yola, arzularım oyandı,
Mən közərdim, o, alışdı, o, yandı,
Son ünvan da daş məzardı, o yandı,
Həyat bağdı, halal-haram üzüm var.

### Eylədi (Dodaqdəyməz)

Küsdürdü yarından yarı, yar adı,
Yarı göynərtidi, yarı yaradı,
Küskünlük hansısa yara yaradı,
Küsən könülləri talan eylədi.

Kədər karvan olar, sənsiz, yol üstə,
Dağlar kölgə salar çənsiz yol üstə,
Ayaq şikəst qalar, tənsiz, yol üstə,
Qanı səndən səni alan eylədi.

Yandıqca çiçəyin, gül əkən dünya,
Ağlayar ürəyin, gülərkən dünya,
Atəşin yerinə kül çəkən dünya,
Təranənin sözün yalan eylədi.